**Hec vaxt oğurluq etməyin. Hətta uşaq olsan belə bu işə görə sən cinayət məsuliyyətinə cəlb olunarsan.**



Unutma ki, yetkinlik yaşına çatmayan hər kəs oğurluğa, görə Azərbaycan Respublikasının Cinayət məcəlləsinin **20.2** maddəsinə görə məsuliyyətə cəlb olunur!

**Unutmayın ki, kiminsə evinə basqın edən, əşyalarını oğurlayan, seyfini qıran - bir sözlə quldurluq və soyğunçuluğa təşəbbüs edən uşaqlar belə qanun qarşısında cavab verir!**



Azərbaycan Respublikasının Cinayət məcəlləsinin 20.2 maddəsinə əsasən hətta uşaqlar belə yaşından asılı olaraq quldurluğa və soyğunçuluğa görə müəyyən məsuliyyət daşıyırlar.

**Dostlar, odlu və soyuq silahlarla oynamayın. Çünki istəmədən də olsa bir qəza törədə bilərsiniz.**



On dörd yaşı tamam olmuş şəxslər Azərbaycan Respublikasının Cinayət məcəlləsinin **20.2**-ci maddəsinə əsasən odlu silahdan, döyüş sursatından partladıcı maddələrdən və qurğulardan istifadəyə görə cinayət məsuliyyətinə cəlb olunurlar.

**Uşaqlar, kiminsə şəklini fotoaparatla çəkməklə və ya görüntüsünü video lentə almaqla onu təhdid etmək heç də yaxşı hərəkət deyil. Hətta buna görə siz ciddi şəkildə cəzalandırıla bilərsiniz.**



Azərbaycan Respublikasının Cinayət məcəlləsinin **20.2.**-ci maddəsinə əsasən on dörd yaşı tamam olmuş, səxslər, hədə-qorxu ilə tələb etməyə görə cinayət məsuliyyəti daşıyır.

**Polisə zəng edərək yalan məlumat verməyin! Çünki yalan məlumatlar verərək siz hansısa mühüm bir cinayətin üstünün açılmasına mane ola bilər, polisin dəyərli vaxtını itirməsinə səbəb olarsınız.**



İctimai təhlükəli əməli törətdikləri zaman yetkinlik yaşına çatmayanların cəzası Azərbaycan Respublikasının Cinayət məcəlləsinin **20.1** və **20.2** maddələrində nəzərdə tutulmuş yaş həddinə çatmamış şəxslər barəsində görülən tədbirlərin tətbiqi qaydasına əsasən müəyyən olunur.

**Yetkinlik yaşına çatanların cinayət məsuliyyətinin xüsusiyyətləri nələrdən ibarətdir? Bilirsinizmi?**



**Maddə 84.** Yetkinlik yasına çatmayanların cinayət məsuliyyəti

**Maddə 84.1.** Cinayət törədərkən on dörd yasi tamam olmus, lakin on səkkiz yasina çatmayan səxslər yetkinlik yasina çatmayanlar hesab olunur.

**Maddə 84.2.** Yetkinlik yaşına çatmayanlar cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

**Dostlar, azyaşlıların törətdikləri cinayətlərə görə hansı cəzaları ala biləcəyini bilirsinizmi?**



Azərbaycan Respublikasının Cinayət məcəlləsinin 8.4- cü maddəsi “yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti ” adlanır.

**Maddə 85.5** Yetkinlik yaşına çatmayanlara aşağıdakı cəza növləri təyin edilir:

**Maddə 85.1.1.** Cərimə

**Maddə 85.1.2.** İctimai işlər

**Maddə 85.1.3.** İslah işləri

**Maddə 85.1.4.** Müəyyən müddət azadlıqdan məhrum etmə

# Maddə 85.1.1. Cərimə



**Maddə 85.2.** Cərimə, yalnız müstəqil əmək haqqı və ya bu cəzanın icrasına yönəldilə bilən əmlakı olan yetkinlik yaşına çatmayan məhkuma təyin edilir. Cərimə Azərbaycan Respublikasinin qanunvericiliyi ilə müəyyən olunmuş sərti maliyyə vahidi məbləğinin otuz mislindən üç yüz mislinədək miqdarda təyin edilir.

# Maddə 85.1.2. İctimai işlər



**Maddə 85.3.** İctimai işlər qırx saatdan yüz altmış saatadək müddətə təyin olunur və yetkinlik yaşına çatmayan məhkumun bacardığı, onun təhsildən və əsas işindən asudə vaxtlarda yerinə yetirdiyi işlərdən ibarətdir. Bu cəza növünün icra müddəti on beş yaşınadək şəxslər üçün gündə iki saatdan, on beş yaşından on altı yaşınadək şəxslər üçün isə gündə üç saatdan çox ola bilməz.

**Maddə 85.1.3. İslah işləri;**
**Maddə 85.1.4. Müəyyən müddətə azadlıqdan məhrum etmə.**



**Maddə 85.4.** Yetkinlik yaşına çatmayan məhkumlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmis miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət tərəfindən tutulur.
**Maddə 85.5.** Azadlıqdan məhrum etmə yetkinlik yaşına çatmayan məhkumlara on ildən çox olmayan müddətə təyin edilir. Yetkinlik yaşına çatmayan məhkumlar cəzalarını aşağıdaki tərbiyə müəssisələrində çəkirlər.